Malik Atilay

# İyun, iyul və qaranlıq

(Şeirlər)

qanun nəşriyyatı

**Malik Atilay  İyun, iyul və qaranlıq**
Bakı, Qanun Nəşriyyatı, 2024, 96 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 23.10.2024

Mətn dizaynı: Sabina Aydın
Texniki redaktor: Xəyalə Əhmədova
Qapaq dizayneri: Kənan Eynullayev

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431–16–62; 431–38–18
Mobil: (+994 55) 212–42–37
e–mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0659

© Qanun Nəşriyyatı, 2024
© Malik Atilay, 2024

Gənc imzalar arasında seçilən müəllifin bu kitabına müxtəlif mövzulu modern şeirlər daxil edilib: insanın ruhani yalnızlığı, Bakının fərqli bucaqlardan görünüşü, sevgi, ayrılıq, ölüm qarşısında acizlik və s. Bəzi şeirlər oxuculara mətbuatdan tanış olsa da, çoxu yenidir.

## *Ümidsiz şəhərin küləyi*

Tərsinə çevrilmiş tısbağa kimi
Ümidsiz şəhərdir Bakı
Xəzri
Köhnə darvazatək silkələyir şəhəri
Uzaq ellərdən vacib xəbər gətirən
qasid kimi
Burda
Ümidin bir azını sabaha saxlayırıq
Axşamdan bişən yemək kimi
Burda
İntihar etmiş adamın
Sahildə soyunduğu çəkmələrdir zaman.

## *Ac pişiklər ürəyimi axtaracaqlar*

Sovetskidə tərkedilmiş binanın
zirzəmisində
Ac pişiklər ürəyimi axtaracaqlar
Axtaracaqlar ki,
Parçalayıb öyrəsinlər
Tez-tez pencəyinin döş cibini yoxlayan
adam kimi
Niyə əlim qəlbimin üstündəydi,
Tapmayacaqlar,
Tapmayacaqlar çünki
Hörüklərinin içində gizlətmişəm qəlbimi.

## *Səssiz üsyan*

Sən gəlmədən işıq yanmaz evində,
Soba tüstüləməz
Soyuqdu deyərsən otaqlar...
Deməzsən
Gözləyənim yoxdu
Adamsızdı evim.

Kirli pərdələr,
Qadın əllərinə həsrət evlərin
Üsyan bayrağıdır.
Bu səssiz üsyanı bastırmaq üçün
Söküb pərdələri
Qazet yapışdırarsan şüşələrə
Döyüşün bir ömürlük bitdiyinin elanı
kimi...

## *Yağış*

1.

Hər yağış damlasını
Torpağa qovuşanadək bir mələk
izləyərmiş
Sənsə gözlərindən
Axan yaşları
Yorğanın altında gizlətdiyinimi
Düşünürsən hər kəsdən.

2.

İndi bulud deyil göylərdəki
İndi yağış deyil yağan
Küçələrdən şüşə yığıb satan
Kimsəsiz uşaq
Alın tərini silir buludlara
Sonra sıxır buludları nənəsindən qalma
güllü-güllü dəsmal əvəzi.

3.

Unutmur hələ də
Anası ölən günü inci-inci yağan yağışları,
Atasının sərxoş-sərxoş binadan atarkən özünü
Cansız bədəninə hər kəsdən əvvəl çatan damlaları
Ona görə
Hər yağışlı gündə
İtirmədiyi adamları yoxlayır bircə-bircə
Dizlərindəki ağrıların qapılarını döyən qoca kimi.

## *Hindunun şərqisi*

Tanış səs axtarır qulaqlarım...
Ətrafımı boz tüstü kimi sarıb adamsızlıq...
Tikintidən baş qaldıran çəkic səsləri
Tıxaclar
İtlərin hürüşməsi
Qorxub qaçan pişiklərin qırıq-qırıq
nəfəsləri
Bakının iniltisini boğur.

Bu şəhərin sonuncu hindusuyam
İbadətgahları əlindən çıxan...
İnancı uçurulan
Çadırları yıxılan...

Tanış səs gəlir gendən
Çox uzaqdan
Hansısa həyət evində
Əlləri payız qocalar nərd oynayırlar.
Qoxusunu da hiss edirəm
Bir qaşığa on üçü yerləşən düşbərənin
Buralarda olmasa belə
Hardasa köhnə Bakı yaşayır hələ də...

## *Qorxu yazılıbmış, Tanrım...*

Zaman hörümçək kimi tor qurub
üzlərində
Haçandı qaçmır dodaqları,
Haçandı açılmır düyünü alınların ,
Haçandı qərib qorxu var ürəklərində,
Hər qapı döyüləndə
Sinəsində ürəyi çevrilir qaranquşa çırpılır
sümük qəfəsə
Bu şəhərdə
Hər adama, hər nəfəsə
Qorxu yazılıbmış, Tanrım
Ya ölüm xəbəri gəlir axşamüstü
Üstünə evlərin böyük div kimi
Burda evlər məzar olur adamlarına
Burda məzarlar doğmadı insanlara
ev kimi.